

PAŞA Bank

# DAYANIQLI İNKİŞAFA DAİR HESABAT

## 2014-2015-ci illər üzrə





# Mündəricat


PAŞA Bankın dayanıqlı fəaliyyəti 6
PAŞA Bank haqqında 8
Hesabat haqqında 10
PAŞA Holdinq-in Baş İcraçı direktorunun müraciəti 14
PAŞA Bankın Baş İcraçı direktorunun müraciəti 16
Maliyyə və əməliyyat üzrə göstəricilərimiz 18
Korporativ idarəçilik üzrə fəaliyyətimiz 20
Müştəri münasibətləri üzrə fəaliyyətimiz 24
İnsan resursları üzrə fəaliyyətimiz 26
Ətraf mühitlə bağlı fəaliyyətimiz 30
Sosial cavabdehlik üzrə fəaliyyətimiz 32

Azərbaycanın ən yüksək göstəricilərə malik və ən etibarlı Bankı olan PAŞA Bank ölkənin dayanıqlı iqtisadi inkişafını fəal qaydada təşviq edir.



# PAŞA BANKIN DAYANIQLI FƏALİYYƏTİ



# PAŞA BANKIN DAYANIQLI FƏALİYYƏTİ

**PAŞA Bankın dayanıqlı inkişafla bağlı prioritetləri**

- Ölkənin qiymətli kağızlar bazarına sərmayələr qoymaq;
- Kiçik və orta sahibkarlıq obyektlərinin dəstəklənməsinə yönəlmiş bank məhsulları və xidmətləri vasitəsilə ölkənin iqtisadi inkişafını dəstəkləmək və qeyri-neft sənayelərinə diqqət yeriməklə iqtisadiyyatın şaxələndirilməsinə töhfə vermək;
- Kütləvi informasiya vasitələrinin potensialının gücləndirilməsinə, tələbələrin dəstəklənməsinə və əhalinin maliyyə savadlılığının artırılmasına yönəlmiş uzun müddətli layihələr vasitəsilə ölkənin insan kapitalının gücləndirilməsinə töhfə vermək;

## Əsas maliyyə göstəriciləri

| | 2015 | 2014 |
|---|---|---|
| Xalis mənfəət (AZN ilə) | 14.4 milyon | -2.8 milyon |
| Məcmu aktivlər (AZN ilə) | 2.3 milyard | 1.3 milyard |

## Əsas əməliyyat göstəriciləri

| | 2015 | 2014 |
|---|---|---|
| İşçilərin sayı | 416 | 321 |
| Qadın əməkdaşların faiz nisbəti (%) | 39.8 | 40.2 |

## Ətraf mühitlə bağlı əsas göstəriciləri

| | 2015 | 2014 |
|---|---|---|
| Enerji istehlakı (KVsaatda) | 46,851.20 | 30,982.09 |
| Su istehlakı (Ton) | 4,851.09 | 1,179.02 |

## Sosial təşəbbüslər üzrə əsas göstəriciləri

| | |
|---|---|
| “Maliyyə savadlılığının artırılması” proqraminin ümumi iştirakçı sayı | 150 |
| “Mən PAŞA Bank təqaüdçüsüyəm” təşəbbüsündən bəhrələnənlərin ümumi sayı | 24 |



# PAŞA BANK HAQQINDA

*İddialı hədəflərin nail olunmasına əsaslanan dayanıqlı inkişaf strategiyası sayəsində PAŞA Bank məcmu səhm həcminə görə Azərbaycanın ən iri özəl bankına çevrilmişdir.*

Azərbaycanın aparıcı korporativ maliyyə təsisatı olan "PAŞA Bank" ASC tamçeşidli (korporativ və investisiya bankçılığı, ticarətin maliyyələşdirilməsi və aktivləri idarəetmə) maliyyə xidmətlərini böyük korporasiyalardan kiçik və orta müəssisələrədək geniş müştəri bazasına göstərmək məqsədilə 2007-ci ildə təsis edilib. Son illər ərzində Azərbaycan iqtisadiyyatının davamlı inkişafına paralel olaraq, Bank ölkə iqtisadiyyatının inkişafı üçün böyük əhəmiyyət kəsb edən kənd təsərrüfatı, nəqliyyat, tikinti və pərakəndə satış seqmenti kimi sahələrdə öz müştəri bazasını genişləndirmişdir. Bank, tikinti, daşınmaz əmlak, sığorta, turizm, mehmanxana və digər sahələrə sərmayə yatıran Azərbaycan şirkətlər qrupu PAŞA Holdinqin bir hissəsi olan PAŞA Bank holdinqin sığorta, tikinti, tikinti materialları və turizm sahəsində fəaliyyətlərini dəstəkləmək üçün önəmli maliyyə alətlərini təmin etmişdir.

Baş qərargahı Bakıda yerləşən "PAŞA Bank" ASC Azərbaycanda altı biznes mərkəzi vasitəsilə fəaliyyət göstərir. Buna əlavə olaraq Gürcüstan və Türkiyədə törəmə bankları fəaliyyət göstərir. "PAŞA Bank" ASC-nin uzunmüddətli baxışı Bakı, Tiflis və İstanbul arasında artan ticarət və işgüzar əqdləşmə axınını asanlaşdıracaq bir biri ilə əlaqəli bank əməliyyatlarını ərsəyə gətirməklə region miqyasında aparıcı təsisata çevrilməkdir.

"PAŞA Bank" ASC toplam səhm kapital baxımından Azərbaycanın ən böyük bankıdır, aktivlərin həcmi baxımından isə ölkədəki ilk beş bank arasında qərarlaşıb. 2015-ci ilin sonuna olan vəziyyətə əsasən "PAŞA Bank" ASC 2,3 milyard manat həcmində toplam aktivlərə, 333 milyon manat həcmində isə nizamnamə kapitalına malik idi. "PAŞA Bank" ASC-nin davamlı korporativ inkişaf göstəriciləri beynəlxalq maliyyə dairələri və reytinq agentlikləri tərəfindən etiraf edilib. Beləliklə, Standard & Poor's və Fitch Ratings reytinq agentlikləri "PAŞA Bank" ASC-ə 'BB-' uzunmüddətli və 'B' qısamüddətli kredit reytinqi dərəcəsini təyin ediblər. Bununla yanaşı "PAŞA Bank" ASC EMEA Finance jurnalının Europe Banking Awards 2015 təltifi üzrə Azərbaycanın ən yaxşı bankı (The Best Bank of Azerbaijan) adına layiq görülüb. Həmçinin Bank Commerzbank AG-dən Ticarət mükafatına layiq görülmüşdür. Azərbaycanda dayanıqlı biznes anlayışına rəvac vermək məqsədilə "PAŞA Bank" ASC davamlı səyləri ilə maraqlı tərəflərin fəal cəlb edilməsinə dəstək verməyə müvəffəq olub.

### PAŞA Holdinqin törəmə təşkilatları

PAŞA Bank
PAŞA Sığorta
PAŞA Travel
PAŞA Tikinti
PAŞA Həyat
PAŞA Kapital
Kapital Bank

### Baxış

Baxışımız Azərbaycanın aparıcı banklarından biri olmaqda dayanır. Ən yüksək etik standartların saxlanılmasına, mükəmməl işgüzar nüfuzun qorunmasına, dünya səviyyəli məhsul və xidmətlərin göstərilməsinə və nümunəvi maliyyə gücünə sadiqik.

### Missiya

Missiyamız müştərilərimizin tələbatına uyğunlaşdırılmış yüksək-keyfiyyətli xidmət və məhsulları göstərməklə onların inkişafına töhfə verməkdən ibarətdir.

- Yüksək səriştəyə malik olan və işinə sadiq heyətin işə cəlb edilməsi, təlimləndirilməsi və yetişdirilməsi;

- İctimaiyyətin rifah və mədəni inkişafına dəstək vermək
- Güclü maliyyə mövqeyini qorumaq;
- Əməliyyatlarımızın şəffaf və düşünülmüş tərzdə aparılması.

### Strateji məqsədlər

- Kapitalın və təşkilati səmərəliliyin möhkəmləndirilməsi;
- Əsas bacarıqların gücləndirilməsi;
- Bazar mövqeyinin genişləndirilməsi;
- Müştəri xidmətlərinin dəstəklənməsi;
- Qrupdaxili qarşılıqlı sinerji fəaliyyətlərinin həyata keçirilməsi.

### Mükafatlar

2015

EMEA Finance tərəfindən "Azərbaycanın ən yaxşı bankı" mükafatı, Avropa Bank mükafatları 2015;

İlin iştirakçısı və Gender bərabərliyini təşviq edən aparıcı şirkət nominasiyalarında mükafat, Azərbaycan Mikro Maliyyə Assosiasiyası

2014

"Azərbaycanın ən yaxşı bankı"
Ticarət mükafatı 2014, Commerzbank AG
EMEA Finance, Avropa Bank mükafatları, 2014.

## *PAŞA Bank uzun müddətli hədəflərinə nail olmaq üçün PAŞA Holdinq-in dayanıqlı maliyyə mövqeyindən bəhrələnir.*

### Səhm bölgüsü



# HESABAT HAQQINDA

Bu Hesabatda PAŞA Bank tərəfindən rəqabət qabiliyyətli üstünlükləri qoruyub saxlamaq üçün həyata keçirilən dayanıqlılıq ilə bağlı fəaliyyətlərin təfərrüatları açıqlanır. Qlobal hesabatlılıq təşəbbüsünün G4 əsas qeydinin təlimatlarına müvafiq olaraq bu hesabat PAŞA Bankın Azərbaycanda 2014-2015-ci illər üzrə fəaliyyətlərini əhatə edir. Müvafiq olaraq, bu Hesabata PAŞA Bankın törəmə təşkilatlarının və Bankın Gürcüstan və Türkiyədəki fəaliyyəti daxil edilməmişdir. PAŞA Bankın dayanıqlı fəaliyyətinə dair hesabatın miqyasını müəyyən edərkən PAŞA Bankın yüksək rəhbərliyinin təlimatları və Bankın səhmdarlarının tövsiyələri nəzərə alınmışdır. Hesabatın məzmununu müəyyən etmək üçün mahiyyətinin təhlili həyata keçirilmişdir (aşağıda təqdim olunur).

PAŞA Bankın Dayanıqlı fəaliyyətə dair hesabatının mahiyyətinin təhlili

| PAŞA Bankın fəaliyyətinə təsiri / Maraqlı tərəflərin prioritetləri | Aşağı | Orta | Yüksək |
|---|---|---|---|
| Yüksək | | • Enerji<br>• Emissiyalar<br>• Məşğulluq<br>• Müxtəliflik və Bərabər imkanlar | • İqtisadi fəaliyyət<br>• Dolayısı iqtisadi fəaliyyət<br>• Məhsul və xidmətlər<br>• Təlim və təhsil<br>• Anti-korrupsiya<br>• Komplayans<br>• Məhsul portfeli<br>• Audit<br>• Fəal mülkiyyətçilik<br>• İnvestisiya |
| Orta | | • Nəqliyyat<br>• Qeyri-ayrı-seçkilik | • Məhsul cavabdehliyi<br>• Qadın və kişi üçün bərabər mükafatlandırma<br>• Yerli icmalar |
| Aşağı | | | |

PAŞA Bankın fəaliyyətinə təsiri

Maraqlı tərəflərin prioritetləri

*PAŞA Bank ənənəvi korporativ sosial cavabdehlik (KSM) yanaşmasından korporativ maraqlı tərəflərin cəlb edilməsi (KMC) modelinə keçidi təmin etməklə dayanıqlı inkişafa nail olmaq hədəfinə sadiq olaraq qalır.*

PAŞA Bankın dayanıqlı fəaliyyətə dair strategiyası

| KMC parametri | Dayanıqlılıq yanaşması | Təsviri |
|---|---|---|
| Biz sahıbkarlıq fəaliyyətini səlahiyyətləndiririk | Bizim üçün Müştərilərdir | Mövcud müştəriləri xidmətlərlə təmin etməklə və müştəri bazasını artırmaqla KOS-ları dəstəkləməyi hədəfləyir. Layihə portfeli:<br>• Müəssisələrin dayanıqlı inkişafı proqramı;<br>• İdeya qazandı;<br>• Barama mərkəzi;<br>• "Biznes klass" təşəbbüsü; |
| Biz insan kapitalını səlahiyyətləndiririk | Bizim üçün insanlardır | Ölkənin ən yaxşı tələbələrini və gənclərini Banka stajçı və ya işçi qismində cəlb etmək üçün onları seçməyi və təlimləndirməyi hədəfləyir. Layihə portfeli:<br>• Azərbaycan "Biznes keys" müsabiqəsi;<br>• "Banklar fəaliyyətdə" təşəbbüsü;<br>• Esse yazılması müsabiqəsi;<br>• PAŞA Bank təqaüdü. |
| Biz potensialı və təkmil idarəçilik prinsiplərini səlahiyyətləndiririk | Bizim üçün nüfuzdur | Müxtəlif çeşidli maarifləndirmə yönümlü təşəbbüslər və tədbirlər vasitəsilə Bankın nüfuzunu dəstəkləməyi hədəfləyir.<br>Layihə portfeli:<br>• Biznes jurnalistikası;<br>• Orta məktəb şagirdləri üçün maliyyə savadlılığı təşəbbüsü;<br>• Ali təhsil müəssisələrinin tələbələri üçün maliyyə savadlılığı təşəbbüsləri; |

PAŞA Bankın Maraqlı tərəflərin cəlb edilməsinə dair strategiyası

Bankın qarşılaşdığı strateji məsələləri qiymətləndirərkən PAŞA Bank əsas maraqlı tərəflərin rəylərini və narahatçılıqlarını diqqətlə təhlil edir. Bundan başqa, Bank maraqlı tərəflərin tövsiyələindən bəhrələnmək üçün xüsusi kommunikasiya kanallarını təmin edir.

PAŞA Bankın maraqlı tərəflərinin xəritəsi

- Geniş bank icması (assosiasiyalar);
- İnstitusional tərəfdaşlar (Beynəlxalq maliyyə təşkilatları);
- İşçi heyət;
- Tənzimləyici orqanlar;
- Peşəkar qruplar;
- Müştərilər;
- Rəhbər heyət



Maraqlı tərəflərin cəlb edilməsi kanalları

- E-poçt
- Toplantılar
- İntranet
- Posterlər/banerlər
- Reklam və təşviqat kampaniyaları
- Xəbər bülletenləri/jurnallar
- Ünsiyyətin qurulması təşəbbüsləri
- Tədbirlər
- Xüsusi kampaniyalar
- Komanda görüşləri, İşçi heyət ilə illik yığıncaqlar
- Məmnunluğa dair sorğular

## *PAŞA Bank sektor tərəfdaşları ilə əməkdaşlıq etmək məqsədi ilə milli və beynəlxalq təşkilatlarda üzvlük təşəbbüslərinə xüsusi önəm verir*

Üzvlüklər

- Amerikanın Azərbaycandakı Ticarət Palatası
- Birləşmiş Ştatlar-Azərbaycan Ticarət Palatası
- Xəzər inteqrasiya işgüzar klubu
- Birgə İsveç Ticarət Palatası
- Britaniya biznes qrupu
- Almaniya-Azərbaycan Ticarət Palatası

# PAŞA HOLDINQ-IN BAŞ İCRAÇI DIREKTORUNUN MÜRACIƏTİ

*PAŞA Holdinq Gürcüstan və Türkiyədəki sərmayələri sayəsində regionun yüksək nüfuzlu oyunçusuna çevrilmişdir.*

Hörmətli PAŞA Holdinq Tərəfdaşları,

PAŞA Holdinq 2006-cı ildən etibarən Azərbaycan iqtisadiyyatının qeyri-neft seqmentinin daha da inkişaf etməsində əhəmiyyətli rol oynamışdır. Maliyyə xidmətləri (bank və sığorta), tikinti, turizm, əmlakın qurulması və daşınmaz əmlak kimi sahələrə yatırdığımız sərmayələr ölkə iqtisadiyyatının şaxələndirilməsinə yol açmışdır. Bundan başqa, Holdinq Gürcüstan və Türkiyədəki sərmayələri sayəsində regionda böyük nüfuza malik inkişaf etməkdə olan oyunçuya çevrilmişdir.

Dayanıqlı maliyyə və əməliyyat yönümlü fəaliyyətlər...

Qlobal miqyasda müşahidə olunan dəyişkən iqtisadi və biznes mühiti fonunda PAŞA Holdinq 2014-2015-ci illəri əhatə edən dövrdə dayanıqlı maliyyə fəaliyyətini qoruyub saxlamışdır. PAŞA Holdinq təşviq etdiyi şəffaflıq, keyfiyyət, mənfəətlik, tərəfdaşlıq və sahibkarlıq kimi əsas dəyərlərinə əsaslanaraq korporativ idarəçiliyə dair ən əlverişli yanaşmaları tətbiq etmişdir. Maraqlı tərəfdaşlarımızı PAŞA Holdinqin biznes proseslərinə cəlb etməklə biz korporativ idarəçilik sahəsindəki ən əlverişli təcrübələrin Azərbaycana gətirilməsində təkzibolunmaz rol oynamışıq.

Yüksək nüfuza malik regional investor: PAŞA Holdinq

PAŞA Holdinq öz dayanıqlı inkişaf strategiyasını regionda aparıcı, yüksək nüfuzlu strateji investora çevrilməkdən ibarət uzun müddətli məqsədinin təməli hesab edir. Bu məqsədə nail olmaq üçün rəqabət qabiliyyətli üstünlüyümüzün qorunub saxlanılması amalı ilə Holdinq insan resurslarının təlimləndirilməsinə və mütərəqqi texnoloji layihələrin icrasına sərmayə yatırımları edir. PAŞA Holdinq Azərbaycan cəmiyyətinin dayanıqlı inkişafına töhfə vermək üçün də əhatəli sosial cavabdehlik layihələrini həyata keçirir. Korporativ sosial cavabdehlik layihələrimiz əsasən iqtisadiyyatın qeyri-neft sektorunda sahibkarlıq mədəniyyətinin gücləndirilməsinə, əhali arasında maliyyə savadlılığı səviyyəsinin artırılmasına və Azərbaycan gənclərinin bacarıq və potensialının gücləndirilməsinə hədəflənmişdir.

Nailiyyətlərimiz davam etməkdədir...

2017-cı ildə PAŞA Bank özünün 10-ci ildönümünü qeyd edəcək. Bu müddət ərzində nail olduğumuz bir çox nailiyyətlər kimi biz gələcək dövrlərdə də yüksək peşəkarlığa malik insan kapitalımız və davamlı korporativ strukturumuz sayəsində yeni və hətta daha da yüksək nailiyyətlərə imza atacağımıza ümid edirik. Dayanıqlı uğura doğru yolumuzda korporativ dəyərlərimiz və tərəfdaşlarımızın dayanıqlı dəstəyi bizə bələdçilik etməyə davam edəcək. PAŞA Holdinq adından dayanıqlı fəaliyyətimizə və bu günədək əldə etdiyimiz bir çox uğura töhfə vermiş hər bir kəsə minnətdarlığımı bildirmək istərdim.

Hörmətlə,
PAŞA Holdinq-in Baş icraçı direktoru
Camal Paşayev



# PAŞA BANKIN BAŞ İCRAÇI DIREKTORUNUN MÜRACIƏTI

*PAŞA Holdinqin sağlam kapital strukturu sayəsində PAŞA Bank 2007-ci ildən etibarən davamlı maliyyə fəaliyyəti nümayiş etdirməyə müvəffəq olmuşdur.*

Hörmətli Tərəfdaşlarımız,

PAŞA Bank maliyyə xidmətlərinin demək olar ki, bütün çeşidlərini özündə ehtiva edən əhatəli məhsul və xidmətləri vasitəsilə Azərbaycan iqtisadiyyatının inkişaf etdirilməsində böyük rol oynamışdır. PAŞA Holdinqin baxışına paralel olaraq, PAŞA Bank öz əməliyyatlarını Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə yönəlmiş milli səylərə müvafiq olaraq uğurla həyata keçirmişdir. Bundan başqa, Bankımız Türkiyə və Gürcüstandakı törəmə təşkilatları vasitəsilə ölkənin xarici ticarət əməliyyatlarına da dəyər qatmışdır.

### Regionda maliyyə oyunçusu...

PAŞA Holdinqin sağlam kapital strukturu sayəsində PAŞA Bank 2007-ci ildən etibarən dayanıqlı maliyyə fəaliyyətini nümayiş etdirməyə müvafiq olmuşdur. Bu gün "PAŞA Bank" ASC toplam səhm kapitalı baxımından Azərbaycanın ən böyük özəl bankıdır, aktivlərin həcmi baxımından isə ölkədəki ilk beş bank arasında qərarlaşıb. 2015-ci ilin sonuna olan vəziyyətə əsasən "PAŞA Bank" ASC 2,3 milyard manat həcmində toplam aktivlərə, 333 milyon manat həcmində isə nizamnamə kapitalına malik idi. "PAŞA Bank" ASC-nin davamlı korporativ inkişaf göstəriciləri beynəlxalq maliyyə dairələri və reytinq agentlikləri tərəfindən etiraf edilib Bu gün bankımız məcmu səhm həcminə görə Azərbaycanın ən böyük özəl bankıdır, məcmu aktivlərinin həcminə görə isə top beş özəl bankdan biridir. Dayanıqlı artım tempinə nail olmaqla yanaşı, Bank həm də bütün biznes seqmentləri üzrə müştəri bazasının təkmilləşdirilməsi baxımından uğurlu əməliyyatlara həyata keçirmişdir. Gürcüstan və Türkiyədə törəmə təşkilatları istisna olmaqla, PAŞA Bankın Bakıdakı baş qərargahı ilə yanaşı doqquz filialı fəaliyyət göstərir.

### Uzun müddətli dayanıqlılıq strategiyasını hədəfləyirik

PAŞA Bankın əlaqələndirilmiş fəaliyyəti bankın dayanıqlılıq yanaşması ilə sıx bağlıdır. Təsis edildiyi gündən PAŞA Bank dayanıqlılıq strategiyasının əsas məqsədlərinə nail olmuşdur. Bankımız Azərbaycanın qiymətli kağızlar bazarının inkişaf etdirilməsini fəal qaydada təşviq edir və kiçik və orta sahibkarlıq müəssisələrinin sayının artmasını həvəsləndirir. Bundan başqa, PAŞA Bank ölkənin ümumi məhsuldarlıq səviyyəsinin daha da artırılmasına hədəflənmiş uzun müddətli dayanıqlılıq layihələri vasitəsilə insan kapitalına sərmayələr qoyur. Daxildə isə Bank işçi heyəti üçün kompüter bacarıqlarından xarici dil kurslarınadək 70-dən çox müxtəlif növ təlimlər həyata keçirmişdir. Eyni zamanda, PAŞA Bankın müxtəlif sosial cavabdehlik təşəbbüsləri sırasına cəmiyyətin müxtəlif yaş qrupları arasında maliyyə savadlılığı səviyyəsinin artırılması da daxildir.

İllər ərzində bankımız həmçinin sponsorluq təşəbbüsləri vasitəsilə sosial-mədəni və idman fəaliyyətlərini də dəstəkləmişdir.

### Azərbaycan üçün dəyərin yaradılması

Səhmdarlarımızın dolğun dəstəyi və PAŞA Holdinqin sağlam maliyyə strukturu sayəsində PAŞA bank Azərbaycan üçün əlavə dəyərin formalaşdırılmasını davam etməyi planlaşdırır. Biz diqqətimizi qlobal iqtisadi mühitin dəyişkən şərtlərini və artan müştəri bazamızın geniş çeşidli gözləntilərini təmin etmək üçün dinamik, kompleks həll yollarının müəyyən edilməsi üzərində cəmləşdirəcəyik.

Hörmətlə,
Taleh Kazımov
PAŞA Bankın Baş icraçı direktoru



# BİZİM MALİYYƏ VƏ ƏMƏLİYYAT ÜZRƏ GÖSTƏRİCİLƏRİMİZ

*PAŞA Bank 2015-ci ildə kapital adekvatlığı əmsalını 17%-ə çatdırmaqla sağlam maliyyə mövqeyini nümayiş etdirməyə müvəffəq olmuşdur.*

## Əsas maliyyə göstəriciləri (mln. AZN)*

| | 2013 | 2014 | 2015 |
|---|---|---|---|
| Məcmu aktivlər | 704.1 | 1,273.3 | 2,292.7 |
| Kreditlər | 329.2 | 538.9 | 902.2 |
| Depozitlər | 302.8 | 703.1 | 1,374.1 |
| Müştəri müddətli depoziti | 119.3 | 144.8 | 472.9 |
| Müştəri cari hesabları | 183.5 | 558.2 | 901.2 |
| Səhmdarların səhm kapitalı | 234.9 | 323.7 | 432.4 |
| Faiz mənfəəti | 54.8 | 64.3 | 100.3 |
| Xidmət haqları və komissiya gəlirləri | 6.0 | 7.4 | 12.7 |
| Əməliyyat gəliri | 51.6 | 60.2 | 116.3 |
| Məcmu əməliyyat xərcləri | 22.6 | 29.3 | 47.4 |
| Xalis mənfəət | 12.0 | -2.8 | 14.4 |

*PAŞA Bank Azərbaycan iqtisadiyyatının davamlı inkişafına töhfə vermək üçün geniş çeşidli maliyyə xidmətlərini təmin edir.*

## Əsas maliyyə əmsalları (%)*

| | 2014 | 2015 |
|---|---|---|
| Kredit/Məcmu aktivlər | 42.3 | 39.4 |
| Kredit/Depozitlər | 76.6 | 65.7 |
| Qeyri-işlək kreditlər nisbəti | 10.76 | 3.82 |
| Tələb depozitləri/Məcmu depozitlər | 79.4 | 65.6 |
| Səhmdarların səhm kapitalı/Məcmu passivlər | 34.1 | 23.2 |
| Kapital adekvatlığı əmsalı | 33 | 17 |

*PAŞA Bank korporativ və fərdi müştərilərinin geniş çeşidli ehtiyaclarını təmin etmək üçün xidmətlər infrastrukturunu davamlı olaraq təkmilləşdirir.*

## Əsas əməliyyat göstəriciləri *

| | 2014 | 2015 | Dəyişiklik (%) |
|---|---|---|---|
| İşçilərin sayı | 321 | 414 | 29 |
| Müştəri bazası | 21,069 | 37,943 | 80 |
| Filial sayı | 5 | 5 | - |
| ATM-lər | 26 | 30 | 15 |
| Hazırlanmış kredit kart sayı | 2,667 | 7,586 | 184 |
| Hazırlanmış debit kart sayı | 12,584 | 23,375 | 86 |
| POS | 2,355 | 2,287 | - 3 |

*PAŞA Bank öz əməliyyatlarını bütün səhmdarlara müsbət təsir göstərən fəaliyyətləri şərtləndirən dəyərlər zənciri hesab edir.*

## Yaradılmış və bölüşdürülmüş iqtisadi dəyər (AZN milyon) *

| | 2014 | 2015 | Dəyişiklik (%) |
|---|---|---|---|
| **Yaradılmış birbaşa iqtisadi dəyər** | 57,0 | 99,9 | 75 |
| a)Gəlir ** | 57,0 | 99,9 | 75 |
| **Bölüşdürülmüş iqtisadi dəyər** | | | |
| b)Əməliyyat xərcləri | 16,0 | 18,1 | 13 |
| c)İşçi maaşı və digər müavinətlər | 6,5 | 12,3 | 89 |
| d)Kapital təminatçılarına ödəmələr | - | - | - |
| e)Hökumətə ödəmələr | 11,7 | 9,1 | -0,77 |
| f)İcma sərmayələri | 0,9 | 1,5 | 66 |

Təchizat zənciri siyasəti

PAŞA Bankın Təchizat zənciri siyasəti Satınalma təlimatları və Tender prosedurlarına əsasən tərtib edilmişdir. Bundan başqa, Bank təchizatçılarından bütün tətbiq olunan milli qanunlara, eləcə də Mərkəzi Bankın qayda və prosedurlarına riayət etmək gözlənilir. Bankın Satınalmalara dair prosedurları əhatəli, ədalətli və şəffaf rəqabətliliyi təmin etmək üçün müəyyən olunduğu halda, Daxili nəzarət departamenti oğruluq, saxtakarlıq və digər bu kimi problemlərin profilaktikasına məsuldur.

*Bu rəqəmlər PAŞA Bankın yalnız Azərbaycan üzrə fəaliyyətini əks etdirir.
**"Gəlirlər" üzrə rəqəmlər BMHS üzrə müxtəlif rəqəmlər əsasında "Xalis faiz mənfəət"+ "Qeyri-faiz mənfəəti" düsturu ilə hesablanır.

# PAŞA BANKIN KORPORATİV İDARƏÇİLİK ÜZRƏ FƏALİYYƏTİ

*PAŞA Bank-da dayanıqlı korporativ idarəçilik yanaşmalarının tətbiqi davamlı inkişafa nail olmaq üçün ilkin şərtdir.*

Ölkənin aparıcı bankı olaraq PAŞA Bank öz korporativ idarəçilik sistemini Azərbaycan Respublikası Mərkəzi bankının standartları, ən səmərəli beynəlxalq təcrübələr və Bankın daxili Korporativ idarəçilik siyasəti əsasında formalaşdırır. PAŞA Bank-da möhkəm korporativ idarəçilik prinsipləri davamlı inkişafın nail olunmasının ilkin şərtidir.

Bunu nəzərə alaraq, Bank aşağıdakı fəaliyyətləri həyata keçirir:

- Strateji planlaşdırma prosesini təşkil edir və həyata keçirir;
- Effektiv təşkilati strukturu müəyyən edir;
- Əhatəli maliyyə planlaşdırılması prosesini həyata keçirir;
- Effektiv daxili nəzarət və hesabatvermə sistemlərini tətbiq edir;
- Effektiv risk idarəetmə sistemlərini yaradır;
- Bankın hazırkı maliyyə mövqeyini və əməliyyatlarının statusunu əks etdirən aydın və təfərrüatlı məlumatların davamlı axınını təmin edən etibarlı idarəetmə məlumat sistemlərini yaradır;
- Daxili nəzarət funksiyalarının effektivliyini möhkəmləndirmək üçün daxili audit funksiyasını yaradır; daxili audit strategiyasını yaradır və daxili audit funksiyasını davamlı olaraq təkmilləşdirir;
- Maraqların toqquşmasının qarşısını almaq və tənzimləmək üçün Bankın səhmdarları və rəhbər heyəti tərəfindən həyata keçirilməli dəqiq tədbirləri hazırlayır və Bankın maliyyə və əməliyyat fəaliyyətlərinin nəticələrini bütün maraqlı tərəflərə vaxtlı vaxtında açıqlayır;
- Bankın fəaliyyətinə dair düzgün, təfərrüatlı və qərəzsiz məlumatları bütün maraqlı tərəflərə vaxtlı vaxtında çatdırır;
- Rəhbər heyət tərəfindən Bankın maraqlarının şəxsi maraqlardan üstün tutulmasının təmin edir;
- Bank adından çıxış edən şəxsdən qaynaqlanan Bankın maliyyə mövqeyinin və ya nüfuzunun pisləşməsinin qarşısını almaq üçün tədbirlər görür;
- Beynəlxalq maliyyə hesabatlılığı standartlarına riayət edir, tənzimləmə tələblərini yerinə yetirir və mühasibatlıq və hesabat-vermə prosedurlarını əks etdirmək üçün daxili qaydaları tərtib edir;




*C-səviyyəli işçi heyət icra etdikləri funksiyalara dəyişiklik edilmədən Direktorlar şurasına üzv təyin edilə bilərlər.



*KPMG-nin məşvərətçiliyi ilə PAŞA Bank istənilən növ zəifləmə meylərini dəf edəcəyini təmin etmək üçün stress testlərdən və müxtəlif ssenarilər əsaslı təhlillərdən bəhrələnmişdir.*

### Risklərin idarə edilməsi

PAŞA Bank uzun müddətli hədəflərinə nail olmaq üçün risk və imkanları effektiv şəkildə idarə edir. Fərdi olaraq, Bank səylərini kreditlərin ayrılması prosesi ilə bağlı risklərin effektiv and dəqiq idarə edilməsinə yönləndirir. Bu məqsədlə, PAŞA Bankın Risklərin idarə edilməsi departamenti Borc alan müştərilərin kredit hədlərini müəyyən etmək üçün xüsusi qiymətləndirmə sistemi yaratmışdır. KPMG-nin məşvərətçiliyi ilə PAŞA Bank ehtimal olunan istənilən növ zəifləmə meylərini dəf etmək potensialını təmin etmək üçün stress testlərdən və müxtəlif ssenarilər əsaslı təhlillərdən faydalanır. Risklərin effektiv idarə edilməsi səylərinin bariz nümunəsi olaraq PAŞA Bank 2015-ci ildə kapitalın adekvatlığı əmsalını 17%-ə çatdırmışdır.

### Daxili audit və Komplayans

PAŞA Bank-ın Daxili audit departamenti Bankın daxili biznes proseslərinin risk aspektindən qiymətləndirilməsinə cavabdehdir. Bankın Komplayans siyasətinə, Davranış məcəlləsinə və Maraqların toqquşmasına dair siyasətə müvafiq olaraq Departament lüzum duyulduqda təkmilləşdirilməli sahələr üzrə tövsiyələr verir. Komplayans departamenti ilə əməkdaşlıqda Daxili Audit departamenti bütün işçi heyətin Bankın komplayansa dair siyasət və təlimatları və Davranış məcəlləsi haqqında məlumatlandırılması üçün xüsusi təlimlər keçirir. Bundan başqa, Daxili audit departamenti özünü-qiymətləndirmə prosesinin bir hissəsi olaraq rəhbər heyəti illik əsasda müsahibə edir*.

### Beynəlxalq Komplayans

PAŞA Bank öz əməliyyatlarını FATCA (Xarici hesabların vergi tələblərinə uyğunluq aktı) və Basel II tələblərinə tam riayət etməklə həyata keçirir. Regionda aparıcı oyunçuya çevrilməkdən ibarət hədəfinə müvafiq olaraq Bank şəffaflıq və beynəlxalq standartlara uyğunluğun təmin edilməsinə xüsusi əhəmiyyət verir.

*PAŞA Bankın Komplayans siyasəti Müşahidə şurası tərəfindən 2 aprel 2014-cü ildə qəbul edilmişdir. Əlavə məlumat üçün http://www.pashabank.az/about_us/lang,en/#!/policy_and_reporting/708/ linkə istinad edin.

# MÜŞTƏRİ MÜNASİBƏTLƏRİNİN QURULMASI SAHƏSİNDƏKİ FƏALİYYƏTİMİZ

*PAŞA Bank müştərilərin təkliflərini və şikayətlərini idarə etmək üçün e-poçt, korporativ internet səhifəsi və birbaşa telefon xətlərindən ibarət bütün kommunikasiya kanallarını 24/7 ərzində istifadə edir.*

PAŞA Bank bütün əməliyyatları üzrə qeyri-şərtsiz müştəri məmnunluğunu təmin etmək və müştəri ilə bağlı bütünü aspektlərin məxfiliyini qoruyub saxlamaq prinsiplərinə sadiqdir. Hər il bank büdcəsinin böyük bir hissəsini mövcud məhsul və xidmətlərinin keyfiyyətinin artırılmasına və müştərilər üçün yeni məhsul və xidmətlərin təmin edilməsinə ayırır. İnkişaf edən regional bank olaraq PAŞA Bank beynəlxalq bankçılıq sahəsindəki yeni inkişaf meyllərini mənimsəmək və öz biznes proseslərinə inteqrasiya etmək üçün onları sıx monitorinq edir. Bank həmçinin müştərilərə dair məlumatların məxfiliyini təmin etmək üçün ciddi qayda və təlimatlar müəyyən etmişdir.

### Müştəri təkliflərinin və şikayətlərinin idarə edilməsi

PAŞA Bank müştəri təkliflərini və şikayətlərini idarə etmək üçün e-poçt, korporativ internet səhifəsi və birbaşa telefon xətləri kimi kommunikasiya kanallarını 24/7 rejimində istifadə edir. Müştəridən daxil olan təklif və şikayətlər Bankın keyfiyyətə nəzarət bölməsi tərəfindən qiymətləndirildikdən sonra lüzum duyulduqda proseslərin təkmilləşdirilməsi həyata keçirilir.

PAŞA Bankın məhsul ilə bağlı cavabdehlik prinsipinə müvafiq olaraq müştərilərə onların təklifləri və şikayətləri ilə bağlı atılmış addımlar haqqında məlumat verilir. PAŞA Bank müştərilərə məhsul və xidmətləri təklif edərkən əhatəli məlumat siyasətini tətbiq edir. Yeri və beynəlxalq qanunlara, qayda və sərəncamlara müvafiq olaraq Bank müştərilərini məhsulun müddəti və istifadə şərtləri barədə əhatəli qaydada məlumatlandırır. Bir çox hallarda bu məqsədlə hazırlanmış xüsusi kommunikasiya materialları istifadə edilir.

**PAŞA Bankın fəaliyyət seqmentləri**

- Korporativ bankçılıq
- Kommersiya bankçılığı
- Biznes bankçılığı
- İnstitusional bankçılıq
- Xəzinədarlıq

### PAŞA Bankın müştəri bazası

PAŞA Bank müxtəlif sektorlarda, xüsusilə istehsalat və kənd təsərrüfatı seqmentlərində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq obyektlərini dəstəkləməyi hədəfləyir. Ölkənin dayanıqlı inkişafına töhfə vermək məqsədinə sadiqliyinin bariz nümunəsi olaraq Bank kənd təsərrüfatı sənayesində fəaliyyət göstərən kiçik və orta sahibkarlıq müəssisələrinə maliyyələşdirməni təmin etmək məqsədilə Beynəlxalq Yenidənqurma və İnkişaf bankı ilə əməkdaşlıq edir. Bundan başqa, PAŞA Bank istehlakçılara KOS bankçılığı üzrə məhsul və xidmətlər portfelini təqdim etmişdir. 2014-2015-ci illər üzrə bankın müştəri bazasının təfərrüatları aşağıda təqdim olunur.

### Müştəri gözləntilərini təmin etmək üçün texnologiyalara sərmayələr

PAŞA Bank müştərilərinin həyat keyfiyyətini yaxşılaşdırmaq üçün müntəzəm qaydada müştəri dostu bank texnologiyalarına sərmayələr qoyur. Son zamanlarda bank bütün növ fırıldaqçılıq əməllərindən və təhlükəsizlik risklərindən müdafiəni təmin etmək üçün kartlarla bağlı saxtakarlıq hallarının idarə edilməsi sistemini istismara vermişdir. Bu alət Banka potensial saxta əməliyyatlar baş vermədən onları müəyyən etmək və təhlil etməklə potensial saxtakarlıq hallarını monitorinq etmək imkanı verir. PAŞA Bank 2013-cü ildə MasterCard müştəriləri üçün PayPass, 2014-cü ildə isə Visa müştəriləri

| Bank məhsulları və xidmətləri | | |
|---|---|---|
| Xidmətlər | Məhsullar | Xidmətlər |
| • Hesablar<br>• Uzun müddətli sərəncamlar<br>• Mobil bankçılıq<br>• İnternet bankçılıq<br>• SMS bankçılıq<br>• Private bankçılıq<br>• Xarici valyuta | • Təchizat zənciri maliyyələşdirilməsi faktorinqiİri korporativ müştərilərə kreditlər<br>• KOS-lara kreditlər<br>• Overdraftlar | • İstiqrazların zəmanətli yerləşdirilməsi<br>• İSindikatlaşdırılmış kreditlər<br>• İTicarət/ixrac maliyyələşdirilməsi |

üçün PayWave təqdim etməklə Azərbaycanda kontaktsız ödəmə texnologiyasını təqdim edən ilk bank olmuşdur. Bu qeyri-nağd ödəmə üsulu Bankın korporativ müştərilərinin əməliyyat həcminin əhəmiyyətli dərəcədə artmasına xidmət edir.

### Marketinq Kommunikasiyaları Siyasəti

PAŞA Bankın nüfuzunun idarə edilməsinə və bankın bütün daxili və xarici tərəfdaşlar tərəfindən düzgün dərk edilməsinin idarə edilməsinə bələdçilik etmək üçün Marketinq kommunikasiyaları siyasəti tərtib edilmişdir. Bu siyasət Bankın artan məhsul və xidmətlər portfelini təşviq etmək və müştəri bazasını genişləndirmək üçün tədbirləri həyata keçirərkən Bankın müsbət imicinin qorunub saxlanılmasını təmin edir. PAŞA Bank bazarda bir çox rəqabət-qabiliyyətli üstünlükləri ilə fərqlənir. Bu üstünlüklər sırasına davamlı bazar mövqeyi, korporativ, kommersiya və biznes bankçılığı seqmentlərində zəngin təcrübə, dayanıqlı kapital bazası, regional filial şəbəkəsi və yüksək ixtisaslı peşəkarlardan ibarət beynəlxalq komanda daxildir. Bu kimi əsas mesajlar ənənəvi kommunikasiya kanalları, eləcə də inkişaf etməkdə olan rəqəmsal kanallar (misal üçün: LinkedIn, Twitter, YouTube) vasitəsilə tərəfdaşlara kommunikasiya edilir. Həmçinin Bank hədəflənmiş, daha sıx çərçivədə müəyyən edilmiş tərəfdaşlar seqmenti üçün tədbirlər və sponsorluq təşəbbüsləri həyata keçirir. PAŞA Bank hədəf bazarlarda Bankın təşviq edilməsi amalı ilə müxtəlif ölkələrin səfirlikləri, ticarət palataları, ticarət və biznes assosiasiyaları ilə fəal tərəfdaşlıq münasibətləri qurur. Bu məqsədlə PAŞA Bank Economist investisiya samitində və Economic breakfasts kimi təşəbbüslərdə aparıcı rol oynayır. Həmçinin Bank digər təşkilatlar tərəfindən təşkil olunan Avro-Asiya forumu (Türkiyə) və Economist biznes dəyirmi masaları (Gürcüstan) kimi tədbirlərə sponsorluq təşəbbüsləri vasitəsilə qoşulur.

### Brendin təşviqi ilə bağlı kommunikasiya təşəbbüsləri

PAŞA Bank brendinin təşviqi ilə bağlı fəaliyyətlərini reklam sahəsində püxtələşmiş peşəkarlar ilə əməkdaşlıqda həyata keçirir. Bankın korporativ mahiyyəti PAŞA Bankın etibarlığının vurğulayan "Yeni zirvələrə. Birlikdə" brend vədi ilə müəyyən edilmişdir. Brend vədi vurğulayır ki, PAŞA bank özü müştərilərini hamıdan yaxşı tanıyır və bununla da müştərini yeni zirvələrə aparmaq üçün ən əlverişli mövqeyə malikdir Bank brendin təşviqi ilə bağlı korporativ materiallarını bu yeni brend vədi prizmasından hazırlamışdır.

# İNSAN RESURSLARI SAHƏSİNDƏKİ FƏALİYYƏTİMİZ

*PAŞA Bankın İnsan resursları siyasəti təşkilatın rəqabət-qabiliyyətli üstünlüklərinin daha da möhkəmləndirilməsi aspektindən müəyyən edilmişdir.*

Rəqabət qabiliyyəti günü-gündən artan bank mühiti ilə ayaqlaşmaq üçün PAŞA Bankın İnsan resursları siyasəti işçi heyətin effektivliyinin və məhsuldarlığının Bankın baxışı, missiyası və hədəfləri aspektindən daha da möhkəmləndirilməsi məqsədini nəzərə alaraq tərtib edilmişdir. Bankın insan resurslarının planlaşdırılması, işə cəlb edilməsi, seçilməsi və təlim fəaliyyətləri Bankın strateji biznes məqsədlərinə nail olmaq üçün ən yüksək peşəkarlığa malik işçi heyəti cəlb etmək, inkişaf etdirmək və saxlamaq amalı ilə müəyyən edilir.

## İnsan resursları seqmentinin təsviri

**2015**

| Gender | Sayı | Faiz nisbəti (%) |
|---|---|---|
| Kişi | 250 | 60.3 |
| Qadın | 164 | 39.7 |
| **Məcmu** | **414** | **100** |

İşçi heyətin illik dəyişkənlik göstəricisi: 2.7%

**2015**

| Gender | Sayı | Faiz nisbəti (%) |
|---|---|---|
| Kişi | 192 | 59.8 |
| Qadın | 129 | 40.2 |
| **Məcmu** | **321** | **100** |

İşçi heyətin illik dəyişkənlik göstəricisi: (138 işçi işə cəlb edilmişdir, 45 işçi işdən azad edilmişdir).

2015-ci ildə PAŞA Banka 138 yeni işçi heyət üzvü cəlb edilmişdir, Bundan başqa, il ərzində 15 tələbə iki aylıq təcrübə əldə etmə proqramını başa çatdırmışdır.

## Yeni işçi heyətin gender aspekti üzrə bölgüsü

| Meyar | Yeni işçilərin sayı | Faiz nisbəti (%) |
|---|---|---|
| Qadın | 93 | 68.38 |
| Kişi | 45 | 31.62 |
| **Məcmu** | **138** | **100** |



*PAŞA Bankın bütün əməkdaşları əhatəli müavinətlərdən, eləcə də aylıq maaşdan bəhrələnirlər.*

### Məşğulluq siyasəti və işçi güzəştləri

PAŞA Bankın İşə götürmə siyasəti beynəlxalq insan hüquqları standartlarına uyğundur. Bank işə götürən zaman cinsi mənsubiyyət, hamiləlik, maliyyə vəziyyəti, eyni cinsli şəxsi münasibətlər, irq və ya dəri rənginə görə heç bir formada ayrı-seçkiliyə yol vermir. Hal-hazırda PAŞA Bankın müxtəlif mədəniyyətləri özündə ehtiva edən tolerant iş mühitində dörd xarici vətəndaş çalışır. PAŞA Bank bütün tətbiq olunan Azərbaycan qanunvericiliyinə riayət edir, uşaqları uşaq əməyi hallarından müdafiə edir və digər böyük əhəmiyyət kəsb edən aspektləri təmin edir. Qlobal baxışa uyğun olaraq Bank beynəlxalq insan resursları sahəsindəki meylləri sıx monitorinq edir, mənimsəyir və lüzum duyduqda korporativ struktura inteqrasiya edir. Bankın bütün əməkdaşları aylıq maaş ilə yanaşı, aşağıda təqdim edilmiş əhatəli imtiyazlardan bəhrələnmək imkanına malikdirlər.

### İşçi krediti

PAŞA Bank işçiləri öz iş təcrübələri əsasında güzəştli faiz dərəcələri ilə kredit vəsaiti almaq imkanına malikdir.

### Təhsil krediti

PAŞA Bank işçiləri magistratura təhsillərinin maliyyələşdirilməsi üçün təhsil kreditindən bəhrələnə bilərlər.

### Tibbi sığorta

PAŞA Bankın işçi heyəti işə götürüldükdən sonra üç aylıq sınaq müddətini müvəffəqiyyətlə başa çatdırdıqdan sonra tibbi sığorta xidmətlərindən bəhrələnirlər. Bank üç müxtəlif kateqoriyalarda tibbi sığorta xidmətlərini təmin edir: Gümüş, Gümüş+ və Qızıl paket.

### Digər imtiyazlar

Bank hər il işçilər üçün idman mərkəzlərinə üzvlük haqqını ödəmək üçün müəyyən həcmdə maliyyə vəsaiti ayırır. Bundan başqa, PAŞA Bank işçiləri PAŞA Bank giriş kartlarını təmin etməklə

Sabina mağazalarından 20%, Face studio gözəllik salonundan 25% endirimdən bəhrələnmək imkanına malikdirlər.

PAŞA Bank heyəti həmçinin öz fərdi inkişafı məqsədi ilə müəyyən edilmiş sayda kitab və ya akademik materialları almaq imkanına malikdir.

### Qadın məşğulluğunun dəstəklənməsi

PAŞA bank Azərbaycan cəmiyyətinin davamlı inkişafına töhfə vermək üçün qadınların məşğulluğunu fəal qaydada dəstəkləyir. Bu gün Bankın direktorlar şurasının 40%-i və bankın ümumi işçi heyətinin 39.8%-i qadınlar ilə təmsil olunur. PAŞA Bank qadın işçi heyətinə şəxsi və peşəkar bacarıqlarının inkişaf etdirilməsi üçün geniş imkanlar təmin edir.

## Qadın işçi heyətinin müxtəlif səviyyəli vəzifələrdə təmsil olunması

**2015**

| Tutduğu vəzifə | Sayı | Faiz nisbəti (%) |
|---|---|---|
| Rəhbərlik | 24 | 15.8 |
| Departament heyəti və daha aşağı işçi heyət | 133 | 84.2 |
| **Məcmu** | **158** | **100** |

**2014**

| Tutduğu vəzifə | Sayı | Faiz nisbəti (%) |
|---|---|---|
| Rəhbərlik | 12 | 3.3 |
| Departament heyəti və daha aşağı işçi heyət | 117 | 90.7 |
| **Məcmu** | **129** | **100** |

### Peşəkar təlim təşəbbüsləri

PAŞA Bank işçi heyətinin effektiv və yüksək keyfiyyətli fəaliyyətini təmin etmək üçün əhatəli təlim kursları təşkil edir. Uzun müddətli hədəflərin nail olunmasına yönəlmiş dayanıqlılıq strategiyasına müvafiq olaraq PAŞA Bankın keçirdiyi peşəkar təlim təşəbbüsləri sistematik xarakter daşıyır. Yeni sektordan, hüquqi və tənzimləmə ilə bağlı inkişaf meyllərindən asılı olaraq PAŞA Bank təlim kurslarının məzmunlarını müntəzəm qaydada yeniləyir. Davamlı təlim təşəbbüsləri sayəsində PAŞA Bank işçi heyətinə şəxsi və peşəkar irəliləyişə nail olmaq üçün bilik, bacarıq və səriştə əldə etmək imkanı təmin edir. Bankın hazırkı təlim proqramları işçi heyətə gələcəyin yeni, daha mürəkkəb çağırışlarını uğurla dəf etmək üçün dolğun potensiala nail olmaq imkanı verir.

## İşçi heyət üçün təklif olunan təlim təşəbübsləri-2015

| Təlim növü | Təlim sayı |
|---|---|
| Peşəkar bacarıqlar | 58 |
| Fərdlər-arası ünsiyyət bacarıqları | 10 |
| Kənar tərəflər cəlb olunmaqla ştata daxili təlimlər | 10 |
| Kompüter bacarıqları | 10 |
| Sertifikatlaşdırma | 12 |
| Xüsusi təlimləndirilmiş daxili təlimçilər tərəfindən təlimlər | 13 |
| Xarici dil təlimləri | 5 |

## İşçi heyət üçün təklif olunan təlim təşəbübsləri-2014

| Təlim növü | Təlim sayı |
|---|---|
| Peşəkar bacarıqlar | 83 |
| Fərdlər-arası ünsiyyət bacarıqları | 23 |
| Kənar tərəflər cəlb olunmaqla ştata daxili təlimlər | 10 |
| Kompüter bacarıqları | 3 |
| Sertifikatlaşdırma | 6 |
| Xüsusi təlimləndirilmiş daxili təlimçilər tərəfindən təlimlər | 8 |
| Xarici dil təlimləri | 5 |

Cari təlim kursları ilə yanaşı, PAŞA Bankın İnsan resursları departamenti müxtəlif işçi qrupları üçün xüsusi təlim proqramları hazırlayır. Yüksək rəhbərliyin peşəkar bacarıqlarını inkişaf etdirmək üçün departament 2015-c ildə "Elit bankir" adlı təlim proqramı təşkil etmişdir. 2016-cı ildə İnsan resursları departamenti Boşluqların təhlili və Vəzifədə irəliləmənin planlaşdırılması üzrə təlim proqramını keçirməyi planlaşdırır. Bundan başqa, departament tərəfindən mütəmadi işçi heyət fəaliyyətinin təhlili və qiymətləndirilməsi həyata keçirilir. İstedadların idarə edilməsinə yönəlmiş səylərinin uğurlu icrası nəticəsində PAŞA Bankın İnsan resursları komandasının fəaliyyəti Marketing Kingdom tərəfindən aprel ayında Bakıda keçirilən tədbirdə İnsan resursları üzrə bir sıra beynəlxalq səviyyəli mütəxəssislərdən ibarət jüri tərəfindən qiymətləndirilmiş və komanda "İlin İnsan resursları komandası" adına layiq görülmüşdür, bu isə Bankın İnsan resursları siyasətinin Azərbaycanda və ölkə hüdudlarından kənarda tanınmasının bariz nümunəsidir.

# ƏTRAF MÜHİT İLƏ BAĞLI FƏALİYYƏTLƏRİMİZ

*PAŞA Bank ümumi elektrik enerji və su istehlakını effektiv qaydada idarə etmək məqsədilə bütün filiallar şəbəkəsində mütərəqqi texnoloji infrastrukturu tətbiq edir.*

PAŞA Bankın ətraf mühitin davamlılığının təmin edilməsinə yönəlmiş təşəbbüsləri bankın əsas bank fəaliyyətlərinin ayrılmaz bir hissəsidir. Ətraf mühitə dair beynəlxalq standartları əsas götürərək Bank fəaliyyətinin ətraf mühitə dəyə biləcək mənfi təsirinin qarşısını almaq üçün bir sıra effektiv təşəbbüsləri həyata keçirir.

## Təbii resursların istehlakına nəzarətin edilməsi

Əməliyyatlarının davamlı artımını təmin etməklə yanaşı, PAŞA Bank ümumi elektrik enerjisi və suyun istehlakını effektiv qaydada idarə etmək üçün filiallar şəbəkəsində mütərəqqi texnoloji infrastruktur yaratmışdır. Bank həmçinin işçi heyətin ətraf mühitə dair aspektlər üzrə maarifləndirilməsi məqsədi ilə xüsusi təlimlər təşkil edir. Bundan başqa, PAŞA Bank təbii resursların istifadəsinə qənaət etmək məqsədilə qeyri-nağd ödənişlər və internat bank texnologiyalarına sərmayələr edir.

*Məcmu elektrik enerji istehlakı (KV saatda)*

*2015 - 46,851.20*
*2014 - 30,982.09*

*Məcmu su istehlakı (Tonla)*

*2015 - 4,851.26*
*2014 - 1,179.02*

## Emaletmə ilə bağlı təşəbbüslər

PAŞA Bankın emaletmə yönümlü təşəbbüsləri ətraf mühitin dayanıqlığına hədəflənmiş səylərinin vacib tərkib hissəsidir. Baxmayaraq ki, Azərbaycanda inkişaf etmiş emaletmə sənayesi tam formalaşmamışdır, PAŞA Bank özünün emaletmə kanallarını qurmağa müvəffəq olmuşdur. Tullantı kağızlarını və tullantı elektron avadanlıqlarını toplamaqla yanaşı, Bank nəqliyyat vasitələrinin batareyaların təkrar emal edir. Bank bu təşəbbüs xərclərini ətraf mühit ilə bağlı cavabdehliyi çərçivəsində ödəyir. Miqyası genişləndirilmiş əməliyyatlarının nəticəsi olaraq, PAŞA Bank bankın əsas məhsul və xidmətlərini hazırlayarkən materialların istehlakını optimallaşdıran effektiv strategiyaları həyata keçirir.

*Əsas məhsul və xidmətləri istehsal etmək üçün istifadə olunan materialların (misal üçün: kağız, toner) məcmu çəkisi (tonla)*
*2015 - 7.0*
*2014 - 4.9*

## Karbon qaz emissiyalarının həcminin azaldılması

PAŞA bank iqlim dəyişikliyi ilə mübarizəyə hədəflənmiş təşəbbüslərin fəal dəstəkləyicisidir. Bu məqsədlə Bank fəaliyyətləri nəticəsində formalaşan karbon qaz emissiyalarının azaldılmasına yönəlmiş səyləri həyata keçirir. Bankın ofislərində havalandırıcı sistemlərin və generatorların istismarına nəzarət etməklə yanaşı, PAŞA Bank nəqliyyat vasitələrinin istifadəsi ilə bağlı formalaşan karbon qaz emissiyasını azaltmaq üçün də addımlar atır. CO2 emissiyasını azaltmaq üçün Bank aşağıdakı fəaliyyətləri həyata keçirir:

- Yanacağa qənaət edilməsi standartlarının tətbiq edilməsi nəticəsində yanacağa qənaət edən sürücülər üçün illik bonuslar müəyyən edilmişdir;
- Bankın avtoparkının ölçüləri azaldılmışdır;
- Köhnə model nəqliyyat vasitələri satılmış, əvəzinə yeni ətraf mühit dostu nəqliyyat vasitələri satın alınmışdır;
- Elektrik enerji verilişində olan fasilələri və generatordan istifadəni azalmaq üçün elektrik enerji xətləri yenidən qurulmuşdur;
- Müxtəlif təchizatçılardan alınan malların birləşdirilməsi və daşınma xərclərinin azaldılması üçün əməliyyat yanaşmaları təkmilləşdirilmişdir.
- Sürücülərə sürücülük qaydalarını və nəqliyyat vasitələrinin texniki xidmətini təkmilləşdirmək göstərişi verilmişdir;
- İşçi heyətin uçuşunu azalmaq üçün praktiki tədbirlər həyata keçirilmişdir.



# SOSİAL CAVABDEHLİK FƏALİYYƏTİMİZ

*PAŞA Bank EMEA Finance jurnalı tərəfindən "Avropada ən yaxşı sosial cavabdehlik proqramı" mükafatına layiq görülmüşdür.*

PAŞA Bank Azərbaycanın rifahına və mədəni inkişafına töhfə vermək, eləcə də səhmdarları üçün əlavə dəyər yaratmaq məqsədlərinə sadiqdir. Bu məqsədə nail olmaq üçün bank ilk dəfə 2009-cu ildə özünün korporativ sosial cavabdehlik və sponsorluq strategiyasını müəyyən etmişdir. PAŞA Bank öz korporativ sosial cavabdehlik təşəbbüslərini həyata keçirərkən gənc nəslin potensialının gücləndirilməsinə və ölkənin sosial-mədəni inkişafına xüsusi diqqət yetirir.

### "Breyn-rinq" beynəlxalq yarışı

PAŞA Bank gənc nəsil nümayəndələri arasında rəqabətlik hissinin formlaşdırılmasına yardım etmək və onların intellektual bacarıqlarını inkişaf etdirmək üçün 2015-ci ildə "Breyn-rinq" beynəlxalq yarışına sponsorluq etmişdir. Gəncə Dövlət Universiteti, Azərbaycan Dövlət Kənd təsərrüfatı universiteti, Azərbaycan Texnoloji Universiteti və digər yerli universitetlərin komandaları yarışda iştirak etmişdir. Qalib gəlmiş komandalar PAŞA bankdan sertifikatlar və prizlər ilə mükafatlandırılmışdır.

### Azərbaycanda maliyyə savadlılığının artırılması

PAŞA Bank kiçik və orta ölçülü biznes fəaliyyətləri ilə məşğul olan sahibkarların maliyyə savadlılığını artırmaq üçün xüsusi təlimləri təşkil edir. Azərbaycan Respublikası Mərkəzi Bankı, Junior Achievement Azərbaycan (JAA) və Beynəlxalq Maliyyə Korporasiyası ilə əməkdaşlıqda, PAŞA Bank fərdi olaraq ölkənin gənc nəsil nümayəndələrinin maliyyə savadlılığını artırmağı hədəfləyir. 2014-cü ildə Müəssisələrin davamlı inkişafı proqramını həyata keçirmək üçün PAŞA Bank Junior Achievement Azərbaycan (JAA) ilə tərəfdaşlıq münasibətləri qurmuşdur. Əsas təşəbbüs çərçivəsində sahıbkarlıq fəaliyyətlinə maraq göstərən 18-27 yaşlı 60 gənc özlərinin kiçik və orta sahibkarlıq müəssisələrini təsis etmək üçün təlimləndirilmiş və dəstəklənmişdirlər. İştirakçılar proqramın təklif etdiyi maliyyə dayanıqlığı və sahibkarlıq fəaliyyəti üzrə təlim kurslarından bəhrələnmişdirlər. PAŞA Bank həmçinin praktiki təcrübəyə əsaslanmış və peşəkar inkişaf təlimi formatında strukturlaşdırılmış Banklar fəaliyyətdə adlı proqramı da həyata keçirir. Bu proqram iştirakçıları bank seqmenti üzrə təhsilləndirir, eləcə də onları daha yaxşı vətəndaş və müdrik istehlakçı olmağa həvəsləndirir.

### BARAMA İnnovasiya və sahibkarlıq mərkəzi

PAŞA Bank 2009-cu ildə Azərcell ilə tərəfdaşlıqda BARAMA İnnovasiya və sahibkarlıq mərkəzini təsis etmişdir. BARAMA mərkəzi start-up layihələri dəstəkləmək üçün layihələndirilmişdir və biznes inkubatoru qismində fəaliyyət göstərir. Bu günədək Mərkəz 20 start-up layihələrinin uğurla başlamasını dəstəkləmişdir və dörd texnologiya şirkətlərinin təsis edilməsində aparıcı rol oynamışdır. BARAMA mərkəzi start-up layihələri üçün əhatəli texnoloji imkanları, eləcə də qanunvericilik, biznesin inkişafı və maliyyə aspektləri üzrə məsləhətçi xidmətlərini təmin edir.

### Azərbaycan Biznes case müsabiqəsi

PAŞA Bank həmçinin ABŞ-da təhsil almış Azərbaycan Tələbələri assosiasiyası ilə tərəfdaşlıqda hər il Azərbaycan Biznes case müsabiqəsini təşkil edir. Ölkənin əsas universitetlərini təmsil edən  gənclərdən ibarət istedadlı komandalar bu populyar tədbirdə real biznes ilə bağlı problemləri çözməyə cəhd edirlər. Bank bu sponsorluq təşəbbüsü vasitəsilə istedadlı Azərbaycanlı gəncləri aşkarlamağı və ön plana çıxarmağı hədəfləyir.

### Sponsorluq fəaliyyətləri

Korporativ sosial cavabdehlik siyasətinə müvafiq olaraq PAŞA Bank sponsorluq təşəb-

büsləri vasitəsilə cəmiyyətin sosial-mədəni inkişafına öz töhfəsini verir. Bank ölkənin gənc nəsil nümayəndələrini hədəfləyən idman və mədəniyyət tədbirlərinə sponsorluq edir.

PAŞA Bank ölkənin qlobal miqyasda daha da yaxşı tanıdılmasına töhfə vermək üçün Azərbaycanda müxtəlif beynəlxalq yarışlara sponsorluq edir. Mədəniyyət sahəsində isə Bank gənc nəslin Azərbaycan xalq musiqisi-muğama marağını artıran layihələri təşviq edir.

PAŞA Bank həmçinin sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə və kiçik-orta sahibkarlığın inkişaf etdirilməsinə hədəflənmiş realiti televiziya proqramı-İdeya qazandı təşəbbüsünü dəstəkləyir. Bu silsilə proqramlar ölkənin gənc nəsil nümayəndələri arasında biznes nou-xau, eləcə də etik yanaşmalara dair məlumatlılıq səviyyəsini artırır.

### Mən PAŞA Bank təqaüdçüsüyəm

PAŞA Bank Azərbaycan gənc tələbələr təşkilatı birliyi ilə tərəfdaşlıqda 2012-ci ildən etibarən təqaüd təşəbbüsünü həyata keçirir. Riyaziyyat, iqtisadiyyat, maliyyə, mühasibatlıq və digər aidiyyəti fənlər üzrə ixtisaslaşan akademik müvəffəqiyyətlər və ya sosial nailiyyətlər əldə etmiş tələbələr təhsillərini maliyyələşdirmək üçün yardım almaq məqsədlə təqaüd vəsaitini almaq üçün müraciət edə bilərlər.

### Biznes klass layihəsi

PAŞA Bank ölkə iqtisadiyyatının qeyri-neft sektorunda sahibkarlıq fəaliyyətini stimullaşdırmaq məqsədi ilə "Biznes klass" layihəsinə start vermişdir. Layihə çərçivəsində iştirakçılar biznes təcrübələrini bir birləri ilə bölüşürlər. Daha əhatəli məlumat üçün aşağıda təqdim edilmiş linkə istinad edin: https://www.youtube.com/user/azbiznesklass

### Esse müsabiqəsi

PAŞA Bank universitet tələbələrini Azərbaycanın gələcək iqtisadi inkişafı barədə esseler yazmağa həvəsləndirmək üçün Britaniya konsulluğu ilə tərəfdaşlıqda hər il esse müsabiqəsini təşkil edir. Ölkənin aparıcı universitetlərindən seçilmiş istedadlı tələbələr müsabiqədə iştirak etmədən öncə yazma bacarıqlarının təkmilləşdirilməsi üzrə təlimlərdən bəhrələnirlər.

### Kütləvi informasiya vasitələrinin dəstəklənməsi

PAŞA Bank Azərbaycanda biznes jurnalistikasını təşviq etmək üçün Britaniya konsulluğu ilə tərəfdaşlıqda üç illik layihə həyata keçirmişdir. Təşəbbüs xaricdən cəlb edilmiş peşəkar təlimçilərin bələdçiliyi altında müəyyən edilmiş bir sıra xüsusi media kursları özündə ehtiva edən konkret olaraq jurnalistlər üçün hazırlanmış təlim proqramından ibarətdir. Bu günədək Azərbaycanın aparıcı çap və elektron informasiya vasitələrini təmsil edən 11 jurnalist Avropa həmkarlarından biznes jurnalistikası sahəsindəki ən son inkişaf meylləri barədə öyrənmək üçün proqramda iştirak etmişdir.

PAŞA Bankın Dayanıqlı inkişafa dair hesabatı ilə bağlı müraciətlər üçün əlaqə məlumatları:
Sona Abbasova, Korporativ kommunikasiyalar departamentinin direktoru

Ünvan:
Yusif Məmmədəliyev küçəsi, 13
Bakı, AZ1005, Azərbaycan
Tel: (+994 12) 496 50 00
Faks: (+994 12) 496 50 10
İnternet səhifə: www.pashabank.az
E-mail: office@pashabank.az



PAŞA Bank

Yusif Məmmədəliyev küçəsi, 13
Bakı, AZ 1005, Azərbaycan
T: (+994 12) 496 50 00
F: (+994 12) 496 50 10
E: office@pashabank.az
www.pashabank.az